WORLD URBAN FORUM
THIRTEENTH SESSION

BAKU, AZERBAIJAN | 17-22 MAY 2026

UN-HABITAT

# WUF13 URBAN EXPO

## Sərgisi

## TƏLİMAT

OLİMPİYA STADİONU,
AZƏRBAYCAN RESPUBLİKASI
BAKI ŞƏHƏRİ

17–22 May 2026-cı il



# Ümumi məlumat

WUF13 çərçivəsində təşkil olunan "Urban Expo" sərgisi Ümumdünya Şəhərsalma Forumunun ən nüfuzlu tədbiridir və **17-22 may 2026-cı** il tarixində Azərbaycanın paytaxtı **Bakıda** yerləşən **Olimpiya Stadionunda** keçiriləcək.

WUF13 tədbirində 25000-dən çox insanın iştirakı gözlənilir. WUF13-ün konseptual sənədində qeyd olunduğu kimi, "Urban Expo" sərgisi mənzil təminatı, iqlim dəyişmələrinə qarşı davamlılıq və təhlükəsiz şəhər mühitinə xüsusi diqqət yetirməklə yanaşı, şəhər problemləri ilə bağlı praktiki həll variantlarını nümayiş etdirəcək.

## "Urban Expo" sərgisində kimlər iştirak edir?

"Urban Expo" sərgisində həm kiçik stendlər, həm də iriölçülü pavilyonlar yer alacaq və burada müxtəlif ölkə, şəhər və regionlar, eləcə də akademik dairələr, vətəndaş cəmiyyəti, BMT qurumları, inkişaf bankları, fondlar və özəl sektor təmsil olunacaqdır. Sərgidə həmçinin WUF13-ün vahid proqram məkanları, o cümlədən UN-Habitat Arena platforması, Şəhər kinoteatrı, Şəhər kitabxanası və Təcrübə mərkəzi də fəaliyyət göstərəcək.

## Seçim meyarları

WUF13-ün "Urban Expo" sərgisi üçün ekspozisiya seçimi prosesində aşağıdakı meyarlar əsas götürüləcək.

1. **Tematik uyğunluq:** Sərginin ekspozisiyaları mənzil təminatı, iqlim dəyişmələrinə davamlılıq və təhlükəsiz şəhər mühitini diqqət mərkəzində saxlamaqla yanaşı, WUF13-ün mövzu və hədəflərini əks etdirməlidir. İştirakçılar sərgidə təqdim etdikləri ekspozisiya və layihələrin bu mövzularla uzlaşmasını ətraflı şəkildə təsvir edən sənəd təqdim etməlidir.

2. **Nüfuz və sənaye uyğunluğu:** Sərgi iştirakçıları həm malik olduqları nüfuz, həm də dayanıqlı urbanizasiyaya töhfə verən sənaye və ya sektorda formalaşmış mövqeləri əsasında seçiləcəklər. Məsələn:

    a. **Mənzil təminatı:** münasib qiymət, enerjiyə qənaət, iqlimə davamlılıq və ekoloji baxımdan təmiz materiallardan istifadə.

    b. **Şəhərsalma və infrastruktur:** "yaşıl" infrastruktur və kompleks planlaşdırma, eləcə də səmərəli şəhər idarəçiliyi və resursların bölüşdürülməsi üzrə texnologiyalar.

    c. **Bərpa olunan enerji:** günəş, külək, su, geotermal enerji və enerjiyə qənaət edən infrastruktur.

    d. **Nəqliyyat:** elektrik nəqliyyat vasitələri, velosiped infrastrukturu, ictimai nəqliyyat sistemləri, velosiped icarəsi sxemləri və s.Waste management and recycling

    e. **Tullantıların idarə edilməsi və təkrar emalı.**

    f. **Suyun idarə edilməsi:** su ehtiyatlarının qorunması və istifadəsi, yağış suyunun yığılması, çirkab suların təmizlənməsi, suyun səmərəli paylanması və şəhərlərdə su tullantılarının azaldılması.

3. **Keyfiyyət və innovasiya:** "Urban Expo" sərgisininn təsirini artırmaq üçün inkişafı və ya ideya liderliyini nümayiş etdirən yüksək keyfiyyətli və innovativ məhsul, məzmun, xidmət, həllərin və yanaşmaların təqdimatına üstünlük veriləcək.

4. **Dayanıqlılıq:** Ekspozisiyalar təkrar emal olunan və yerli materiallardan, enerji və sudan rasional istifadə tədbirləri, tullantıların azaldılması kimi kompleks yanaşma metodlarından istifadə etməklə ekoloji, sosial və iqtisadi təsirlərin necə idarə olunacağını nümayiş etdirməlidir

5. **Müxtəliflik və coğrafi balans:** Sərgi iştirakçıları bütün regionlardan seçiləcək və onların arasında yerli hökumət orqanları, QHT-lər, startaplar, akademik dairələr və təcrid olunmuş icmalar da daxil olmaqla, maraqlı tərəflərin təmsil olunması təmin ediləcək.

6. **Auditoriyanın iştirakı:** Ekspozisiyalar elə dizayn olunmalıdır ki, WUF13 tədbirinin konkret hədəf auditoriyasını cəlb etməklə yanaşı, qarşılıqlı əlaqələrin və mənalı ziyarətçi təcrübələrinin formalaşmasına şərait yaradılsın.

7. **Məkan-logistika məsələləri:** Ekspozisiyaların miqyas və ölçüləri, o cümlədən məkan və texniki tələbləri mövcud sərgi sahəsinin texniki imkanlarına uyğun olmalıdır.

8. **Vizual və məzmun effektivliyi:** İştirakçılar ekspozisiyaların cəlbediciliyini artırmaq və yaddaqalan etmək məqsədilə brendinq, vizual elementlər, işıqlandırma və interaktiv komponentlərdən səmərəli istifadə etməklə yanaşı, əsas ideyanın aydın şəkildə başa düşülməsini də təmin etməlidirlər.

9. **Davamlılıq və uyğunluq:** Ekspozisiyalar fiziki parametrlər baxımdan sərgi mühitinə uyğun olmalı və tədbirin keçirildiyi bütün müddətdə quraşdırıldığı yerdə daimi qalmalıdır.

10. **Maddi və təşkilati məsələlər:** Sərgi iştirakçılar çəkdikləri xərclərə görə özləri məsuliyyət daşıyırlar. Onlar müraciət və təsdiq prosedurlarına, eləcə də son tarixlərə əməl etməlidirlər.

11. **Təlimat tələblərinə riayət:** İştirakçılar sərginin tematik məğzini və əsas elementlərini izah edən ətraflı təklifləri WUF13-ün onlayn GEMS (Qlobal Tədbir İdarəetmə Sistemi) platforması üzərindən (ingilis dilində) təqdim etməlidirlər. Yalnız sərgi sahəsini icarəyə götürən iştirakçılar dizayn və dayanıqlılıq üzrə təlimatlarla uyğunluğu təmin etmək məqsədi ilə stend dizaynlarını təsdiq üçün UN-Habitat-a təqdim etməlidirlər.

WUF13-ün "Urban Expo" sərgisində ekspozisiya ilə iştirak etmək üçün son müraciət tarixi: **31 mart 2026-cı il**. Ərizələr "ilk müraciət edənə üstünlük" prinsipi əsasında nəzərdən keçirildikdən sonra təsdiq ediləcək və ya imtina cavabı veriləcəkdir. Bu baxımdan, sərgidə iştirak üçün erkən müraciət etmək tövsiyə olunur.



## Dayanıqlılıq və materiallara dair təlimat

Materiallara dair təlimatda göstərildiyi kimi, sərgi iştirakçıları stend və ya pavilyonların  dizaynında və və istismarında dayanıqlı təcrübələri tətbiq etməlidirlər.

- Stendlərin quraşdırılmasında təkrar istifadə oluna bilən və ekoloji cəhətdən təhlükəsiz materiallardan istifadə edilməlidir.
- Enerjiyə qənaət edən üsullardan (məs.: LED işıqlandırma sistemindən) istifadə olunmalı və tullantılar azaldılmalıdır.
- Dayanıqlılıq barədə məlumatlılığı artırmaq üçün Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM-lər) açıq şəkildə istinad edilməlidir.

Sərgi iştirakçıları ətraf mühitə mənfi təsiri azaltmaq üçün dayanıqlı materiallardan istifadə etməlidirlər.

- Dayanıqlı materiallar tullantıları, enerji sərfiyyatını və istixana effekti yaradan qaz emissiyalarını azaltmağa kömək edir.
- Daşınma proseslərinin ətraf mühitə mənfi təsirlərini əhəmiyyətli dərəcədə azaltmaq və yerli iqtisadiyyata dəstək olmaq məqsədilə bərpa olunan materialların yerli mənbələrdən tədarükünə üstünlük verilməlidir.
- Materialların mümkün qədər uzun müddət istifadədə saxlanılması prinsipini tətbiq etmək və yeni mənbələrin istismarını azaltmaq üçün təkrar emal olunmuş, kənd təsərrüfatı tullantılarından əldə edilən və bərpa olunmuş materialların istifadəsi təbliğ olunur.

### Tekstil parçalardan kreativ istifadə və 3D çap

İnnovativ material və üsullar sərgi təcrübəsini yaxşılaşdıra bilər.

- Kətan davamlı, təkrar istifadə oluna bilən və bioloji parçalanmaya məruz qalan materialdır və vinil reklam plakatlarını əvəz etmək üçün dayanıqlı alternativdir.
- 3D çap texnologiyası PLA kimi bioloji parçalanan filamentlərdən istifadə etməklə yanaşı, sərfəli və fərdi görüntü  elementlərinin hazırlanmasına imkan yaradır.
- Jüt və çətənə lifi əsaslı təbii parçalar tekstil məmulatlarında sintetik materialları əvəz edə bilər.

### Ekspozisiyalarda təbii yaşıllığın əhəmiyyəti

Bitkilərdən istifadə sayəsində sərgi sahəsi həm estetika, həm də ümumi ab-hava baxımından daha cəlbedici görünə bilər.

- Rəngarəng asma bitkilər və dibçəkdə yerləşdirilmiş yaşıllıqlar stendi daha maraqlı və vizual baxımdan cəlbedici edə bilər.
- Yaşıllıqla bəzədilmiş divar panelləri məkanın rəsmiliyini azaldaraq daha təravətli və xoş atmosfer yarada bilər.
- Plastik bitkilərdən istifadə qadağandır.

### Məzmunun səmərəli idarə olunması

Kağız tullantıları minimuma endirmək üçün rəqəmsal məzmunun paylaşılması tövsiyə olunur.

- QR kodları və NFC nişanlarından istifadə sərgini daha səmərəli təşkil etməyə və müyəssərliyi artırmağa imkan verir.
- Kağızdan az istifadə edilməsi dayanıqlılıq məqsədlərinə uyğun olmaqla yanaşı, ekoloji cəhətdən məsuliyyətli təcrübələrin təşviqinə xidmət edir.

### İstismarı bitmiş avadanlıqların idarə edilməsi

- Sərgi stendlərini sökülüb yenidən istifadə oluna bilən modul komponentlərdən dizayn edin. Bu, xərcləri, resurs sərfiyyatını və tullantıların həcmini azaldır.
- Müraciət ərizəsində stend materiallarının tədbirdən sonra yenidən necə istifadə ediləcəyini, fərqli məqsədlər üçün uyğunlaşdırılacağını, bağışlanacağını və ya təkrar emala yönəldiləcəyini izah edən aydın plan olmalıdır.
- Təkrar emalı təşviq etmək üçün kompozit materiallar və daimi yapışdırıcılar əvəzinə ağac, metal və təbii parçalardan ibarət olan materiallardan istifadə edin. Ekspozisiyaların yenidən istifadə və ya bağışlanma məqsədi ilə asanlıqla sökülməsini təmin etmək üçün qeyri-toksik örtük materialları və sadə bərkidici elementlərə üstünlük verin.



### Dayanıqlı nəqliyyat və logistika

- Yük maşınları və ya konteynerlərin tam dolu göndərilməsini təmin etmək üçün prosesi koordinasiya edərək yük göndərişlərini birləşdirin və eyni yük maşın və konteynerlərdən istifadə edin. Mümkün olan hallarda, stend elementlərinin bir sərgi məkanından digərinə birbaşa daşınmasını təmin edərək boş gedişlərin sayını azaldın.
- Karbon emissiyalarını azaltmaq üçün aşağı emissiyalı nəqliyyat vasitələrini seçin. Mümkün olan hallarda, bu emissiyaları minimuma endirmək üçün hava nəqliyyatı əvəzinə dəmir yolu və ya dəniz nəqliyyatına üstünlük verin.
- Tullantıları minimuma endirmək üçün təkrar istifadə edilə bilən və tarasız qablaşdırma sistemlərindən yararlanın. Birdəfəlik istifadə üçün nəzərdə tutulmuş qutu və plastik qablar əvəzinə təkrar istifadə edilə bilən yeşik, altlıq və təkərli çərçivələrə üstünlük verin. Hər bir elementi ayrıca qutulara yerləşdirmək əvəzinə, əşyaları tarasız (məsələn, təkrar emal oluna bilən streç-plyonka örtməklə) qablaşdırın.

### Suvenirlər və ictimai iaşə

- Birdəfəlik plastik qab qadağası: Stendlərdə / iaşə xidmətlərində birdəfəlik plastik qablardan istifadə edilməsinə yol verməyin. Plastik stəkan və ya butulka qablaşdırmada içməli su paylamayın. Hər hansı qida qəbulu üçün təkrar istifadə olunan və ya komposta yararlı boşqab, çəngəl-bıçaq və stəkanlardan istifadə edin.
- Aşağı təsirli iaşə: Əgər qəlyanaltı və ya içkilər təqdim olunursa, qida daşıma məsafəsini azaltmaq və ev sahibi ölkəsindəki icmaları dəstəkləmək məqsədi ilə yerli və mövsümi məhsullara üstünlük verin. Ət məhsulları ilə müqayisədə ətraf mühitə daha az təsir göstərən bitki əsaslı qida məhsullarından seçim edin.
- Dayanıqlı suvenirlər: Əgər təşviqat kampaniyası çərçivəsində suvenirlər paylanırsa, birdəfəlik və faydasız xırda əşyalar əvəzinə, faydalı və uzunömürlü məhsullara üstünlük verin. Məsələn: təkrar istifadə oluna bilən brendə məxsus çantalar, paslanmayan poladdan termostəkanlar, toxum paketləri və ya paslanmayan fincanlar uzunmüddətli təsir yaradır və birdəfəlik plastikdən istifadənin qarşısını alır.

## Sərginin qrafiki və mühüm tarixlər

Montaj, tədbir günləri və demontaj prosesinin əsas tarixlərindən ibarət plan-qrafik yaxın vaxtlarda təqdim olunacaq.

## Sərgi paketləri və qiymətlər

Sərgi sahəsini və hazır stendləri təklif edən müxtəlif sərgi paketləri mövcuddur. Əvvəlcədən quraşdırılmış stendlər, boş sərgi sahəsi və fərdi dizaynlı ekspozisiyalar üçün əlavə xidmətlərin dəyəri barədə məlumat yaxın zamanda açıqlanacaq.

### Hazır sərgi stendləri

Hazır quraşdırılmış stendlərin sahəsi 9 m2-dən başlayır və sadə mebel, xalça örtüyü, bitkilər, işıqlandırma, enerji şəbəkəsi, eləcə də rəqəmsal məzmunun nümayişi üçün 65 düymlük LED ekran ilə təchiz olunur. Daha böyük ölçülü hazır stendlərin sahəsi 18, 27 və 36 m2 təşkil edir.

Daha iriölçülü stendlər, o cümlədən əlavə xidmət, avadanlıq və mebellərin dəyəri barədə texniki məlumatlar yaxın zamanda təqdim olunacaq. Hazır stendin qiyməti **1 m2 üçün 612** ABŞ dolları təşkil edir.

### Boş sərgi sahəsi

Sərgi iştirakçıları fərdi dizayn edilmiş iriölçülü pavilyonların quraşdırılması üçün boş sərgi sahəsini əvvəlcədən rezervasiya edə bilərlər. Boş döşəmə sahəsinin qiyməti **1 m2 üçün 195** ABŞ dolları təşkil edir.
Boş sərgi sahəsinin rezervasiyası 18 m2-dən başlayır və hər sərgi iştirakçısı üçün 500 m2 ilə məhdudlaşır. Bu sərgi sahəsi üzrə nəzərdə tutulan kommunal xidmətlərin — elektrik enerjisi, su təchizatı və ayrılmış internet bağlantısının dəyəri barədə məlumat yaxın zamanda təqdim olunacaq.

***Bütün qiymətlərə 18% ƏDV tətbiq olunur.**




Ümumdünya Şəhərsalma Forumunda 9m$^2$ stend

# Qayda və tələblər

- WUF13 zamanı təşkil olunan "Urban Expo" çərçivəsində və ya hər hansı digər tədbirdə malların və ya istənilən məhsulun satışı qəti şəkildə qadağandır. Sərginin bir hissəsi kimi paylanan hər hansı material və ya mal pulsuz təklif edilməlidir.
- "Urban Expo" ərazisində rulon şəklində yığılan (roll-up) reklam stendlərinin yerləşdirilməsi dağandır.
- WUF13 tədbiri kağızdan səmərəli istifadə prinsipi əsasında təşkil olunacaq. Buna görə də kağızdan istifadəni azaltmaq üçün iştirakçılara məzmunu rəqəmsal formatda paylaşmaq tövsiyə olunur.
- Bütün tədbir günlərində hər bir stend və ya pavilyonda ən azı bir əməkdaşın daimi iştirakı təmin edilməlidir.
- Bütün iştirakçılar / sərgi iştirakçıları BMT-nin Davranış Kodeksinə əməl etməlidirlər.
- Spirtli içkilərin istifadəsi və/yaxud paylanması qəti qadağandır.
- Stend və pavilyonlar üçün icazə verilən maksimum hündürlük 5 metrdir.
- Döşəmələri hündür olan bütün stend və pavilyonlarda təkərli araba ilə qalxıb-düşmək üçün şərait yaradılmalıdır. Rampanın texniki təfərrüatları WUF13-ün Müyəssərlik təlimatında göstərilib.
- Boş sərgi sahəsini icarəyə götürən təsdiqlənmiş sərgi iştirakçıları 3D pavilyon dizaynlarını təsdiq üçün 10 aprel 2026-cı il tarixinə kimi UN-Habitat-a təqdim etməlidirlər (unhabitat-exhibition@un.org).

* Əlavə qayda və tələblər (o cümlədən sağlamlıq və əməyin təhlükəsizliyi ilə bağlı) qısa zamanda təqdim olunacaq.



WORLD URBAN FORUM
THIRTEENTH SESSION

UN-HABITAT

# “Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri”

**Yükgöndərmə və gömrük məlumatları:**
Sərgi iştirakçıları üçün logistika məsələlərinin rahatlığını təmin etmək məqsədi ilə yükgöndərmə və gömrük rəsmiləşdirilməsi üzrə təlimatlar tezliklə təqdim ediləcək.

**Sərginin koordinasiyası və sərgi sahələrinin ayrılması ilə bağlı məsələlər üzrə əlaqə:**

**Viktor Mgendi**
WUF13 “Urban Expo” sərgisinin koordinatoru,
Dizayn və İstehsal Departamentinin rəhbəri, UN-Habitat
victor.mgendi@un.org

**Ahmed Abdelaziz**
WUF13 “Urban Expo” sərgisinin dizayneri
ahmed.abdelaziz@un.org

**“Urban Expo” sərgisi haqqında ətraflı məlumat:**
unhabitat-exhibition@un.org.

WUF13 “Urban Expo” sərgisinin baş podratçısı və tövsiyə olunan stend montajçıları barədə ətraflı məlumat yaxın zamanda təqdim ediləcək.

